# "Təhsilin yaşıllaşdırılması və iqlim dayanıqlılığı" mövzusu müzakirə olunub



**Noyabrın 18-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Təhsilin yaşıllaşdırılması və iqlim dayanıqlılığı" mövzusunda yüksəksəviyyəli panel müzakirəsi keçirilib.**

AZƏRTAC xəbər verir ki, panel sessiyası iqlim çağırışlarına cavab olaraq təhsildə transformativ yanaşmaların müzakirəsinə həsr olunub.

Elm və təhsil naziri Emin Əmrullayev çıxış edərək bildirib ki, bu gün əsas məqsəd təhsil çərçivələrini iqlim dayanıqlılığı və fəaliyyətlərinə üstünlük vermək üçün yenidən tənzimləməkdir. Bu isə iqlim savadlılığının təhsil standartlarına inteqrasiya olunması və öyrənənlərin iqlim həllərinə fəal şəkildə töhfə verə biləcək bacarıqlarla təmin edilməsi deməkdir.

Müzakirələr zamanı Azərbaycanda STEAM təhsili təşəbbüsünün şagirdlərə "yaşıl enerji" və davamlılıq sahəsində real layihələr üzərində işləməyə imkan yaratdığı da qeyd edilib.

Panel müzakirəsi zamanı iqlimə həssas təhsilin qlobal təşviqində tərəfdaşlığın öhdəliyi bir daha təsdiqlənib və gələcək fəaliyyətlərin əsasən potensialın artırılması, eləcə də biliklərin bölüşdürülməsi istiqamətində olacağı vurğulanıb.

Panel çərçivəsində təşkil edilən "Greening Education Partnership" təşəbbüsünün ikinci illik iclası da öz növbəsində qlobal təhsil liderləri tərəfindən dayanıqlılığın təhsil sistemlərinə inteqrasiyası ilə bağlı müzakirələr aparmaq üçün dinamik platforma rolunu oynayıb.